*Əl işdən soyumaz, ürək arzudan...*

# QƏBƏLƏ

**Qəbələ rayonunun ictimai-siyasi qəzeti**

*1933-cü ildən nəşr olunur*

№ 5-6
(7242-7243) ❁ Cümə, 16 yanvar 2015-ci il ❁ Qəzet ayda 4 dəfə çıxır ❁ Qiyməti 40 qəpik

# İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2015-ci ildə qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib



***Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.***

***Dövlətimizin başçısı iclasda giriş nitqi söyləmişdir.***

Azərbaycan Prezidenti İlham Əliyev qeyd etmişdir ki, 2014-cü ilin əvvəlində qarşıya qoyulan bütün vəzifələr uğurla icra olunmuşdur. Ötən il də əvvəlki illərdə olduğu kimi ölkəmiz üçün uğurlu il kimi yaddaşlarda qalacaqdır. Baxmayaraq keçən il dünyada və bölgədə gərginlik artmış, müxtəlif hadisələr baş vermişdir. Ancaq Azərbaycan sürətli inkişaf tempini saxlaya bilmiş, təhlükəsizlik, şəraitində yaşamışdır. Ölkədə ictimai-siyasi, sabitliyin saxlanılması, xalqla iqtidar arasında birlik və qarşıya qoyulan proqramların icrası təmin olunmuşdur. Nəticə ondan ibarətdir ki, iqtisadiyyatımız təqribən 3 faizə yaxın artmışdır. Lakin bəzi ölkələrdə heç artım olmamış, hətta tənəzzül baş vermişdir. Artım olan ölkələrdə isə bu, bir faizə qədərdir.

Ötən il ümumi daxili məhsulun artımı ilə yanaşı qeyri neft sektorunun artımı məsələsi qarşıya qoyulmuşdur. Sevindirici hal budur ki, qeyri-neft sektoru 7 faiz artmışdır. Qeyri-neft sektorunun gələn illərdə daha böyük həcmdə artımı nəzərdə tutulur. Bu da imkan verir ki, ölkə iqtisadiyyatı gələn illərdə çoxşaxəli şəkildə inkişaf etsin.

2014-cü ildə inflyasiya da çox aşağı səviyyədə, yəni 1,4 faiz olmuşdur. Əhalinin pul gəlirləri isə 4,8 faiz artmışdır. Demək, pul gəlirləri infilyasiyanı 3 dəfə üstələmişdir. Bu göstəricilər isə əhalinin rifah halının yüksəldilməsində ən yaxşı göstəricilərdir.

Cənab Prezident çıxışında qeyd etmişdir ki, ötən il ölkə iqtisadiyyatına 27 milyard dollar investisiya qoyulmuşdur. Bu məbləğin 16 milyardı daxili sərmayədir. Eyni zamanda qoyulan 11 milyard dollar xarici sərmayə onu göstərir ki, Azərbaycan xarici investorlar üçün cəlbedici ölkə kimi qalır.

Manatın məzənnəsinin sabit qalmasından, valyuta ehtiyatının artmasından danışan ölkə başçısı demişdir ki, ölkənin sosial-iqtisadi inkişafına ötən il böyük xərclər qoyulması lazım gəlirdi. Yəni həm infrastruktur layihələrin, həm neft strategiyasının icrası, «Cənub» qaz dəhlizinin inşası böyük xərclər tələb etmişsə də, valyuta ehtiyatımız artaraq 50 milyard dollara çatmışdır. Cənab Prezident bu göstəricilərin dünya miqyasında bəlkə də ən gözəl göstəricilər olduğunu vurğulamışdır. Bütün bu göstəricilər deməyə əsas verir ki, Azərbaycan 11 il ərzində dünyada iqtisadi artım tempinə görə ən sürətlə inkişaf edən ölkədir. Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə, 2014-cü ildə Azərbaycan iqtisadiyyatı dünyada rəqabət qabiliyyətliliyinə görə 38-ci yerə layiq görülmüşdür.

Nazirlər Kabinetinin iclasında İlham Əliyev demişdir: «Əlbəttə, güclü iqtisadiyyat, düşünülmüş siyasət imkan verir ki, sosial sahəyə də diqqət göstərilsin. Bu sahə daim prioritetdir, bu il də prioritet olaraq qalacaq».

Həqiqət də budur ki, ötən il sosial obyektlərin inşası uğurla davam etmişdir. 60-dan çox tibb mərkəzi, 50-dən artıq məktəb binası tikmilmişdir. Ölkədə orta aylıq əməkhaqqı 600 dollara yaxınlaşır. 400 min insana ünvanlı cosial yardım verilir. 90 mindən çox ailə dövlətdən ünvanlı sosial yardım alır. Hər ailəyə dövlət tərəfindən orta hesabla 155 manat (200 dollar) vəsait verilir. Yoxsulluq həddi 5 faizdir. İşsizlik isə 5 faizdən aşağıdır

2014-cü il «sənaye ili» elan edilmişdir. Həmin il 230-dan çox sənaye müəssisəsi yaradılmışdır. 123 min yeni iş yeri açılmışdır. Bu iş yerlərinin 100 mini daimi iş yeridir. Sürətli iqtisadi inkişaf demoqrafik vəziyyətə müsbət təsir etmişdir. Başqa sözlə ötən il ölkədə əhalinin sayı 116 min nəfər artmışdır. Cənab Prezident demişdir ki, yeni iş yerlərinin yaradılmasına gəldikdə bu proses daimi olmalıdır. Çıxışına davam edən dövlət başçısı ötən «Sənaye ili»ndə bir sıra iri layihələrin həyata keçirilməsindən danışmışdır. Ötən il Beynəlxalq Aeroport yenidən qurulmuş, Ələt Beynəlxalq Dəniz Ticarət limanının bərə terminalı, Şəmkirçay su anbarı istifadəyə verilmişdir. «Norm» sement zavodunun istifadəyə verilməsi ilə ölkənin idxaldan asılılığı aradan qaldırılmışdır. Belə böyük layihələri yalnız güclü dövlət icra edə bilər.

**(Ardı 2-ci səhifədə).**